**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**LEYLA MİKAYIL qızı ZEYNALOVA**

# MİLLİ-KULTUROLOJİ DƏYƏRLƏR SİSTEMİNDƏ AZƏRBAYCAN EL MƏRASİMLƏRİNİN YERİ

6219.01 – Kulturologiya və onun ümumi məsələləri

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

**Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kulturologiya kafedrasında yerinə yetirilmişdir.**

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Məhərrəm Paşa oğlu Qasımlı**<br>*Əməkdar elm xadimi,*<br>*filologiya üzrə elmlər doktoru,*<br>*professor* |
| **Rəsmi opponentlər:** | **Çingiz Əli oğlu Abdullayev**<br>*Kulturologiya üzrə elmlər doktoru,*<br>*professor* |
| | **Məryam Əli qızı Əlizadə**<br>*Sənətşünaslıq üzrə elmlər doktoru,*<br>*professor* |
| **Aparıcı təşkilat**: | **AMEA Memarlıq və İncəsənət İnstitutu** |

Dissertasiyanın müdafiəsi "___" "_______" 2018-ci ildə, saat ___da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdindəki FD.02.091 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1065, Bakı, İnşaatçılar prospekti, 39.

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "__________" 2018-cı ildə göndərilmişdir.

**FD.02.091 Birdəfəlik Dissertasiya**
**Şurasının elmi katibi,**
**kulturologiya üzrə fəlsəfə**
**doktoru, dosent:** **F.R.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** El mərasimləri xalqın mənəvi inkişafının əsas dayaqlarından olduğu üçün bu irsin assimilyasiyaya uğraması cəmiyyətin daxili tarazlığını pozar və yad təsirlərin yayılmasına şərait yaradar. Qloballaşma və mədəni inteqrasiya prosesi də mənəvi dəyər anlayışına yenidən baxmağı aktuallaşdırır, demokratik cəmiyyət quruculuğunda dəyər statusunun bir daha gözdən keçirilməsi zərurətini ortaya qoyur. Dünyaya açılmış mədəniyyət pəncərəsindən əsən küləklərin dəyərlər sarsıntısını da özü ilə gətirməsi səbəbindən müasirlik və ənənəvilik, bəşərilik və millilik kimi anlayışlar bəzən doğru qavranılmır. Ona görə də bu gün bəşəriyyətin əldə etdiyi zəngin ictimai təcrübə və yüksək intellektual səviyyədən mənəvi dəyərlər sisteminə yenidən baxılmasına və insanların həyatında onların rolunun yenidən dəyərləndirilməsinə böyük ehtiyac duyulur. El mərasimlərinin özünəməxsusluğuna diqqət yetirilməsi və milli xüsusiyyətlərin tədqiqatların mühüm tərkib hissəsinə çevrilməsi mərasim mədəniyyətinin öyrənilməsi zərurətini də aktual vəzifə kimi ortaya qoyur. Bu mənada azərbaycanlıların əvəzsiz milli-mənəvi sərvəti olan el mərasimlərinin öyrənilməsi, xüsusilə mədəni-tarixi əhəmiyyət daşıyır.

Milli adət-ənənələr, el mərasimləri tarixin bütün mərhələlərində ictimai-mədəni həyatın əsas göstəricisi kimi çıxış edir ki, bu da xalqın kimliyini əks etdirən milli-mənəvi varlığının ilkin əlamətlərindəndir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin söylədiyi kimi, “Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik. Fəxr edə bilərik ki, bizim mədəniyyətimiz qədim zamanlarda da çox zəngin və yüksək olmuşdur”[1]. Qloballaşma şəraitində adət və ənənələrin bir qismi tədricən unudulmağa və ya dəyişilməyə başlasa da, xalqın el mərasimlərində yaşayaraq nəsildən-nəslə ötürülür. Gələcək nəsillərə miras qalması mənasında tarixən yaddaşlardan süzülüb gələn el mərasimlərimizin tədqiqi və təbliği kulturoloji fikrin də zəruri məsələlərindəndir.

Tarixən formalaşmış adət-ənənələrin müxtəlif təsirlərə məruz qaldığı, müasir mədəniyyət adı altında surroqat mədəniyyətlərin yayıldığı bir dövrdə milli və dini dəyərləri özündə ehtiva edən el mərasimləri ilə bağlı problemlərin elmi təhlilinə ciddi əsaslar vardır. Ümummilli liderimiz Heydər Əliyev milli-mənəvi dəyərlərin qorunması ilə bağlı bəyanatında deyirdi: “Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr

---

[1] Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1997, s.24-25.

edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir… Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik”[2].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının mədəni irsinin, milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir. Onun mədəni irsin mühafizəsi və təbliği istiqamətində gördüyü işlər milli-mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürüdür. İlham Əliyev ölkəyə rəhbərlik etdiyi ilk vaxtlardan mədəni irs və milli-mənəvi dəyərlər haqqında bir sıra qanunları təsdiqləmiş, fərmanlar vermiş, sərəncamlar imzalamışdır. Onun 2 oktyabr 2006-cı ildə imzaladığı “YUNESKO-nun “qeyri-maddi mədəni irsin qorunması haqqında” konvensiyasının təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu ilə “YUNESKO-nun “Qeyri-maddi, mədəni irsin qorunması haqqında” 2003-cü il 17 oktyabr tarixli Konvensiyası” təsdiq edilmişdir[3]. Habelə “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 29 yanvar 2004-cü il tarixli Fərmanı ilə “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanunu”nun icrası təmin edilmişdir.

Dövlət səviyyəsində görülən bütün bu tədbirlər, təbii ki, mədəni dünya tərəfindən də təqdir edilməkdədir. Çünki bəşəriyyətin mədəni irsinin öyrənilməsi, mühafizəsi və təbliği məsələləri mədəni dünyanı düşündürən məsələlərdəndir. Bu mənada YUNESKO-nun Baş Konfransının 33-cü sessiyasında (3-21 oktyabr 2005-ci il) mədəni müxtəlifliyin bəşəriyyətin fərqləndirici xüsusiyyəti olduğunu təsdiqlənərək, “Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında” konvensiya qəbul edilmişdir[4]. Məhz belə bir münasibətin nəticəsidir ki, Azərbaycanın bir sıra milli dəyərləri YUNESKO tərəfindən dünyanın qeyri-maddi mədəni irsi siyahısına

---

[2] Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı. Ədəbiyyat qəzeti, 17 avqust 2001-ci il, №32 (3261).

[3] Prezident İlham Əliyev və mədəniyyət. 2 cilddə (II cild). Təbriklər, Qanunlar, Fərmanlar, Sərəncamlar. Bakı: “İDEAL-PRİNT”, 2008, s.156.

[4] Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş Konfransının 33-cü sessiyasında qəbul edilmiş “Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında” Konvensiya (Paris, 20 oktyabr 2005-ci il).

daxil edilmişdir. Bunlar həm də onun göstəricisidir ki, mədəni irsin tədqiqi və mühafizəsi xalqların milli özünəməxsusluqlarını şərtləndirən vacib amil kimi öndə gələn məsələlərdəndir. Azərbaycan Respublikası da milli mədəniyyətin özünəməxsusluğunun qorunmasını Milli Təhlükəsizlik Konsepsiyasının vacib tərkib hissəsi sayır və dövlət siyasətinin əsas strateji hədəflərindən biri hesab edir.

Mədəniyyət strukturunda keçmişlə gələcək arasındakı yaradıcı bir prosesin gerçəkləşməsi – bir cəmiyyətdə mədəni dəyərlərin müxtəlif mədəni fəaliyyətlərin yardımı ilə, o cəmiyyət fərdlərinin düşüncələrinə hakim olması ilə mümkündür. Bu mənada tarixi-mədəni varisliyin qorunması prosesində milli-mənəvi dəyərlər sisteminin vacib elementi, zəruri ünsürü, ayrılmaz tərkib hissəsi el mərasimlərinin rolu danılmazdır. Həm bəşəri, həm də milli-mənəvi dəyərlərin daşıyıcısı olan el mərasimləri bu mənada xalqın mənəvi sərvəti, əvəzolunmaz mədəni irsidir. Elə məhz bu baxımdan el mərasimlərinin ictimai-mədəni mahiyyətini ortaya qoyan, milli-mənəvi dəyərlər sistemində bu fenomenin yerini müəyyənləşdirən, milli özünəməxsusluğun təzahürü olan bu sosial-ictimai hadisənin tədqiqini nəzərdə tutan tədqiqat işinin mövzusu aktuallıq kəsb edir.

**Mövzunun işlənmə dərəcəsi.** Azərbaycan xalqının tarixən yaratdığı və yüksək mənəvi-əxlaqi dəyərləri özündə ehtiva edən, nəsildən-nəslə ötürüldükcə mükəmməlləşib formalaşan zəngin el mərasimləri vardır. Bu ənənənin təməli hələ insanlığın ibtidai dövrlərindən atılmağa başlamış, müxtəlif ictimai-siyasi formasiyalarda tarixi sınaqlardan çıxmış, fərqli etiqad və dünyagörüşü ilə təmasda olaraq günümüzədək gəlib çıxmışdır.

Xalqımızın əsrlər boyu yaratdığı və inkişaf etdirdiyi zəngin milli-mənəvi sərvətlərin qorunub saxlanılması və dəyərləndirilməsi istiqamətində müxtəlif zamanlarda çeşidli tədbirlər həyata keçirilsə də, bu sahədə sistemli və irimiqyaslı fəaliyyətə iyirminci yüzillikdə diqqət yetirilməyə başlanmışdır. Belə ki, sovet hakimiyyətinin ilk onilliklərində mənəvi mədəniyyətin mühüm bir hissəsi olan şifahi xalq ədəbiyyatının toplanması, nəşri və tədqiqi işinə xüsusi əhəmiyyət verilmiş, lakin bu, daha çox mövcud ideoloji sistemə xidmət məqsədi daşımış, marksist-leninçi ideologiyaya uyğun olaraq folklora sinfi yanaşma metodu tətbiq edilmiş, istismarçı siniflərin ifşası, əzilən sadə, zəhmətkeş xalqın gerçək milli-tarixi yaddaşını əks etdirən folklor örnəkləri üzərinə isə yasaq qoyulmuşdur. Bütün bunlara baxmayaraq, tarixi gedişatın xronoloji izlənməsinə, el mərasimləri ənənəsinin mənşəyi və tarixi köklərinə dair məlumatlara tarixi-etnoqrafik, filoloji, sənətşünaslıq, kulturoloji və s. elm sahələrinə həsr edilmiş tədqiqatlarda rast gəlmək mümkündür. Həmçinin araşdırılan mövzu bu sahədə fərqli aspektli yazılarla çıxış etmiş siyasət və mədəniyyət xadimlərinin də diqqətini cəlb etmiş-

dir. Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Y.B.Çəmənzəminli, M.Ə.Rəsulzadənin, Adilxan Ziyadxan, H.Sarabski, A.Şaiq və onlarla görkəmli ictimai-siyasi xadimin yaradıcılığında el mərasimlərinə dair dəyərli məlumatlara, tarixi faktlara rast gəlmək mümkündür.

Qeyd edək ki, hələ ötən əsrin 30-cu illərindən başlayaraq Azərbaycan mədəni-etnoqrafik fikrində bayramlar və el mərasimləri haqqında yazılan əsərlərdə artıq tədqiqatçılıq meylləri güclənir. Bu cəhətdən D.Bağırovun uşaq oyunları və xalq mərasimləri, M.A.Dadaşzadənin isə mənəvi mədəniyyətə həsr olunmuş əsərləri maraq doğurur. 60-cı illərdə etnoqraf H.A.Quliyev öz tədqiqatlarında Azərbaycan xalqının mənəvi mədəniyyətindən bəhs edərkən mövzuya aid qiymətli fikirlər söyləmişdir. Son dövrlərdə Azərbaycan xalqının mənəvi mədəniyyətinin bölgələr üzrə öyrənilməsində mühüm irəliləyişlər olmuşdur. Etnoqraflardan Ə.T.Əliyev Gürcüstan azərbaycanlılarının, M.Allahmanov Qərb bölgəsi əhalisinin mənəvi mədəniyyətinə, M.T.Paşayeva Azərbaycanlıların adət və inanclarına aid dissertasiyalar müdafiə etmişlər. Eyni zamanda problemin tarixi-mədəni, etnoqrafik və folklorşünaslıq baxımdan araşdırılmasında Q.C.Cavadov, N.Rzayev, M.H.Təhmasib, A.Nəbiyev, M.Allahverdiyev, B.Abdullayev, E.Əlibəyzadə, Q.Ə.Qeyvullayev, H.Q.Qədirzadə, M.Ə.Cəbrayılova, İ.G.Məmmədova kimi tədqiqatçıların ciddi əməyi olmuşdur.

Mövzunun mifoloji baxımdan tədqiq edilməsində M.Seyidovun xidmətləri xüsusi qeyd olunmalıdır. Habelə, mənəvi mədəniyyətimizin tarixinə həsr olunmuş ümumiləşdirici və fundamental tədqiqat əsərləri içərisində Məmməd Arif Dadaşzadənin "Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti" adlı tədqiqat işi xalqımızın ənənəvi bayramları, el mərasimləri, oyun və əyləncələri ilə bağlı məsələlərin tarixi-mədəni və etnoqrafik aspektləri ümumazərbaycan fonunda araşdırılması baxımından dəyərli bir elmi əsərdir.

Mövzunun elmi-tədqiqat obyekti kimi kulturoloji və sənətşünaslıq istiqamətli araşdırılmasına gəldikdə isə bu işə əsasən ötən əsrin ortalarından başlanılmışdır. El mərasimlərinin əhatəli elmi-nəzəri təhlili Ə.Sultanlı, M.H.Təhmasib, M.A.Dadaşzadə, M.Seyidov, Ə.Cəfərzadə, Cavad Heyət, N.Rzayev, E.Aslanov, M.Allahverdiyev, M.Həkimov, A.Nəbiyev, B.Abdullayev, Ə.S.Məmmədov, H.A.Quliyev, M.Hatəmi, M.Qasımlı, T.Haqverdiyev, F.Məmmədov, M.Süleymanlı, İ.Hüseynov, İ.Əliyeva, T.Hüseynova kimi tədqiqatçıların araşdırmalarında öz əksini tapmışdır.

Türkiyəli alimlərdən Aydın Oy, İ.Durmuş, M.Eroz, Y.Harun, İ.Kafesoğlu, Y.Kalafat, Ö.Kürşat, Z.Makas bilavasitə ortaq türk mərasimlərinə dair araşdırmalar aparmışlar. Eləcə də rusdilli mənbələrdə tədqiqatçılardan S.M.Abramzon, X.Arqınbayev, R.Babayev, F.T.Valeev,

N.Volkova, S.Ş.Hacıyeva, B.X.Karmışeva, N.F.Katanov, N.P.Lobaçeva, A.İ.Mazaev, A.İ.Noneşvili, S.İ.Rudenko, Q.P.Snesarev, O.A.Suxareva, İ.Q.Şaroev, R.Əfəndiyeva tədqiq olunan mövzuya dair dəyərli əsərlər müəllifidirlər.

Ümumilikdə milli-kulturoloji dəyərlər sistemində el mərasimlərinin yerinə dair çoxsaylı tədqiqat işləri yazılsa da, indiyə kimi Azərbaycan el mərasimləri kulturoloji aspektdən dissertasiya səviyyəsində işlənilmədiyi üçün biz tədqiqat işimizdə bu elmi vəzifənin öhdəsindən gəlməyə çalışmışıq.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işində el mərasimlərinin mədəni-ictimai mahiyyətinin araşdırılması, bayram və mərasimlərin milli-mənəvi dəyərlər sistemindəki rolu və yerinin müəyyənləşdirilməsi istiqamətində qarşıya qoyulmuş məqsəd və vəzifələr başlıca olaraq aşağıdakılardan ibarətdir: Mədəni-ictimai hadisə olan mərasimlərin mahiyyətini və Azərbaycan kulturoloji düşüncəsindəki spesifik xüsusiyyətlərini tarixi inkişaf fonunda izləmək və dəyərləndirmək; Sosial hadisə olan el mərasimlərinin tarixi dinamikasının elmi təhlilini vermək; Mərasim anlayışının mənşəyinə tarixi-etimoloji yanaşmaları tarixi-müqayisəli təhlil etmək; Kütləvi mərasim, şənlik və bayramların ictimai-mədəni funksiyalarına tarixi təcrübə kontekstində qiymət vermək; El mərasimlərində təzahür edən xalq ruhunun sosial-iqtisadi və mənəvi-tərbiyəvi aspektlərini aydınlaşdırmaq; El mərasimlərini milli-mənəvi dəyərləri özündə əks etdirən kulturoloji sistem kimi tədqiq etmək; Dini və dünyəvi xarakterli el mərasimlərinin səciyyəvi xüsusiyyətlərini araşdırmaq; Toy və yas mərasimlərinin mahiyyətini milli-kulturoloji dəyərlər kontekstində tədqiq etmək; Toy mərasimlərinin ümumi və səciyyəvi xüsusiyyətlərinə tarixi-müqayisəli yanaşmalara diqqət yetirmək; Yas mərasimlərinin sakral və dünyəvi mahiyyətinə tarixi-kulturoloji baxışlara ümumiləşdirmə vermək; Modern və multikultural cəmiyyətdə toy və yas mərasimləri praktikasına yeni baxışın mahiyyətini açıqlamaq. Prosesin dini və milli dəyərlər kontekstində elmi-tənqidi izahını vermək.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan el mərasimləridir. Azərbaycan milli-kulturoloji dəyərlər sistemində el mərasimlərinin yerinin müəyyənləşdirilməsi, mərasim anlayışının etimoloji və terminoloji baxımdan təhlili, həmçinin, el mərasimlərinin təşkili və keçirilməsi, Azərbaycanın etnoqrafik mənzərəsi fonunda türk etnosunun və tarixən bu coğrafiyada məskunlaşmış etnik qruplar və milli azlıqların mərasim ənənəsindəki ortaq və fərqli cəhətlər isə tədqiqatın predmetini təşkil edir. Bu məqsədlə mövzuya dair monoqrafik əsərlər, elmi nəşrlər və dövri mətbuat araşdırılmış, arxiv və kitabxanalardakı mənbələr nəzərdən keçirilmiş, xüsusilə Azərbaycan, Türkiyə və Rusiya tədqiqatçılarının araşdırmalarına

istinad edilmişdir.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Tədqiqat işinin nəzəri əsasını görkəmli kulturoloq, sənətşünas, tarixçi, türkoloq və filoloq alimlərin konseptual fikirləri təşkil edir. Tədqiqatın metodoloji əsasını isə aksioloji, paksioloji, komporativist, semiotik, qneseoloji metodlar və tarixilik, varislik, məntiqilik, sistemlilik və müqayisəli təhlil prinsipləri təşkil edir. Tədqiqat işində nəzərdən keçirilən problemlərlə bağlı kulturoloji, tarixi, etnoqrafik və filoloji fikrin nəzəri qənaətlərindən, eləcə də folklorşünaslıq və sənətşünaslığın elmi-nəzəri təcrübəsindən faydalanılmışdır. Araşdırmada Azərbaycanın və türk dünyasının ən görkəmli tədqiqatçılarının, həmçinin rus alimlərinin fikir və mülahizələri üstünlük təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan el mərasimlərinin ciddi aşınmaya məruz qalması faktı həm dövlət qurumlarını, həm də ictimai fikri narahat etməkdədir. "Milli-kulturoloji dəyərlər sistemində Azərbaycan el mərasimlərinin yeri" adlı dissertasiya işinin əsas elmi yeniliyi tarixi təcrübəyə istinadən bayram və mərasim anlayışlarının təhlili, el mərasimlərinin təzahür formaları, Azərbaycan xalqının toy və yas mərasimləri praktikasına yeni baxışla şərtlənir, dini və milli dəyərlər kontekstində problemin elmi-tənqidi təhlili nəticəsində gəlinmiş nəticə və elmi qənaətlərdən ibarətdir.

Tədqiqat işinin elmi yeniliyi məhz problemin özünün qoyuluşu ilə müəyyən olunur və əsasən aşağıdakı müddəalarda öz əksini tapır:

– Adət, ənənə, mərasim və bayramlarla bağlı ayrı-ayrılıqda əsərlər yazılsa da, mövzu ilə əlaqəli bir sıra problemlər tarixi, etnoqrafik, filoloji sahədə tədqiqat obyektinə çevrilsə də, indiyədək el mərasimlərinin mədəni-ictimai mahiyyəti milli-mənəvi dəyərlər kontekstində lazımınca öyrənilməmiş, bu istiqamətdə monoqrafik şəkildə elmi-kulturoloji araşdırma aparılmamışdır. Bu mənada tədqiqat işində el mərasimlərinin mədəni-ictimai mahiyyəti, milli-mənəvi dəyərlər sistemində bu sosial hadisənin yeri ilk dəfə olaraq müstəqil təhlil obyektinə çevrilmişdir.

– Araşdırmada el mərasimlərinin mənşəyi, tarixi kökləri, sosial-mədəni və bədii-estetik mahiyyətinin şərh və təhlil olunduğu mənbə və qaynaqlara istinad edilmiş, bayram və mərasim məfhumları terminoloji anlayış kimi müqayisəli surətdə tədqiq edilmişdir.

– Tədqiq olunan problemə geniş tarixi, fəlsəfi, kulturoloji kontekstdən yanaşılmış, bu vaxta qədər təsadüf edilən neqativ stereotiplərin ideoloji bağlılığından və prinsiplərindən azad olmağa cəhd göstərilmişdir.

– Dini və dünyəvi mərasimlərin ümumi və spesifik cəhətlərinə diqqət yetirilmiş, el mərasimləri bütöv kulturoloji düşüncə modeli kimi təqdim olunmuşdur. Dini və dünyəvi ənənələri yaşadan mərasimlər haqqında tari-

xi-mədəni bilgilər verilmiş, bu mədəniyyət faktı milli dəyərləri mühafizə edən kulturoloji vahidlər kimi səciyyələndirilmişdir.

– Dissertasiyada toy və yas mərasimlərinin mahiyyəti milli-kulturoloji dəyərlər kontekstində açıqlanır. Həmçinin Azərbaycan türkləri ilə yanaşı, həm tarixən bu coğrafiyada məskunlaşmış etnik qrupların, azsaylı xalqların el mərasimlərindəki fərqli və səciyyəvi xüsusiyyətlər, həm də ümumazərbaycan baxımından oxşar ümumi cəhətlər tədqiq edilir.

– Modern və multikultural cəhətləri ilə səciyyələndirilən müasir Azərbaycan cəmiyyətində toy və yas mərasimləri praktikasına dair elmi-tənqidi dəyərləndirmələr aparılır və prosesin milli və dini dəyərlər kontekstində tənzimlənməsi perspektivlərinə dair təkliflər verilir.

**Tədqiqatın nəzəri-praktik əhəmiyyəti.** Araşdırma zamanı əldə olunan başlıca elmi qənaət və nəticələr el mərasimlərinin mədəni-ictimai mahiyyətinin açıqlanması baxımından elmi-nəzəri əhəmiyyət daşıyır. Tədqiqat işi el mərasimlərinin mədəni və ictimai-sosial mahiyyətinin öyrənilməsi sahəsində azsaylı araşdırmalardan olduğuna görə bu sahədə gələcək tədqiqatların zəmini kimi təcrübi əhəmiyyətə malikdir. Tədqiqat işi kulturologiya, mədəniyyət tarixi, sənətşünaslıq, etnoqrafiya, folklorşünaslıqla məşğul olan araşdırıcılar üçün elmi mənbə kimi yararlı ola bilər. Eyni zamanda tədqiqatdan ali məktəblərin humanitar fakültələrində, xüsusilə də kulturologiya, etnoqrafiya və folklorşünaslıqla əlaqəli fənlərin tədrisində yardımçı dərs vəsaiti kimi istifadə etmək mümkündür.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kulturologiya" kafedrasında yerinə yetirilmişdir. Tədqiqat işi ilə bağlı tədqiqatçının məqalə və tezisləri çap olunmuş, beynəlxalq konfranslarda mövzu üzərindəki axtarışları əks etdirən məruzələri dinlənilmişdir. O cümlədən, işin əsas məzmunu doktorant və gənc alimlərin respublika konfransında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilən elmi-nəzəri konfranslardakı çıxışlarda öz əksini tapmışdır.

**Tədqiqatın quruluşu.** Tədqiqatın quruluşu və həcmi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət heyətinin qərarı ilə təsdiq edilmiş "Dissertasiyaların tərtibi qaydaları"na uyğun olaraq hazırlanmışdır. Dissertasiya işi giriş, iki fəsil, altı yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"El mərasimlərinin tarixi-kulturoloji inkişaf dinamikası"** adlı **I fəsli** üç yarımfəsildən ibarətdir. **"Azərbaycan kultu-**

**roloji düşüncəsində mərasim anlayışının mənşəyinə tarixi-etimoloji yanaşmalar"** başlıqlı ilk yarımfəsildə mərasim mədəniyyətinin formalaşma tarixinin xronologiyası tədqiq edilir. Adət, ənənə, mərasim və bayram kimi kulturoloji terminlərin mahiyyəti və etimologiyasına aydınlıq gətirilir. Belə qənaətə gəlinir ki, xalqların dünyagörüşünü, tarixə baxışını, etnik-psixoloji mühitini, istək və arzularını, bir sözlə, mənəvi aləmini özündə əks etdirən bayram və mərasimlər bütövlükdə onu yaradan etnosun milli sərvəti, mənəvi xəzinəsidir. İctimai-sosial mövcudluğun zəruri şərti və yalnız insanlığın spesifik ifadəsi olan bu mərasimlər lap qədim dövrlərdən başlayaraq bütün cəmiyyətlərdə və mədəniyyətlərdə mövcud olmuşdur. Mərasimlər xalqın tarixini, onun sosial-iqtisadi və mənəvi təkamülünü, təbiətə və cəmiyyətə münasibətini, dünyagörüşü və ictimai şüurunun yetkinlik səviyyəsini göstərən sosial-bədii hadisə, sosial-mənəvi fenomendir. Mərasimlər mədəniyyətin ən qədim və daim təkrarlanan elementi kimi həmişə birliyin, həmrəyliyin formalaşması və təsdiqinin ən mühüm vasitəsi olmuş, insanın sosiallaşmasına təkan vermişdir. Bədii-estetik mahiyyət kəsb edən bu fenomen bəşəriyyətin ibtidai dövrlərindən etibarən insanların heyvanlardan fərqli olaraq unikal şənlənmək qabiliyyətinə sahib olduğunu təsdiqləyir. Bu zaman insanlar özlərindən əvvəlki nəsillərin mədəni təcrübəsini mənimsəmək imkanı əldə edir və digər insanların sevincini öz həyatlarına daxil etmək vərdişlərinə yiyələnirlər.

Minilliklər ərzində azərbaycanlılar özünəməxsus cəhətləri ilə seçilən zəngin mənəvi mədəniyyət yaratmış, onu təkmilləşdirmiş, ənənələr, vərdişlər hesabına nəsillərdən-nəsillərə ötürərək bu günümüzə qədər yaşatmışdır[5]. Digər xalqlar kimi azərbaycanlılar da tarixən yaratdığı mənəvi sərvətləri müasir dövrümüzə qədər qoruyub saxlaya bilmişlər. Tədqiqatlar göstərir ki, qədim mərasimlərdə xalqımızın ictimai-siyasi baxışları, bədii-emosional hiss və duyğuları cəmləşmişdir. Bu mərasimlər uzun əsrlər boyu formalaşmış və böyük təkamül yolu keçərək, xalqın təfəkküründə təsdiqini tapmış ənənələr sistemini təmsil edir. Burada hər bir mərasimin özünəməxsusluğunu əmələ gətirən çoxsaylı tərkib hissələri də qeyd olunmalıdır. Mərasimlərdə xalq mədəniyyətinin müxtəlif formaları, növləri, janrları cəmləşmişdir. Mərasimlərdə Azərbaycan xalqının dünyagörüşü ilə bağlı təsəvvürləri – rəmzi atributlar, mərasim modelləri, arxetiplər və s. öz əksini tapmışdır.

İnsanların əmək, birgəyaşayış, ailə-məişət qaydaları qədim dövrlərdən başlayaraq bilavasitə xalq adət və ənənələri, mərasim və ayinləri,

[5] Ağayeva X.A. Azərbaycanlıların ənənəvi bayramları, oyun və əyləncələri. Tarix elm. nam. ... dis. avtoreferatı. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Bakı: 2005, 24 s.

əyləncə və oyunları ilə bağlı olmuşdur. Xalqın mərasim ənənəsində ibtidai insanın erkən əmək, məişət həyatından tutmuş onun təbiətə ilkin bədii münasibəti – simvolik, fetişist, magik və totemistik görüşləri, animistik və mifoloji təsəvvürləri əks olunmuşdur. Mərasimlər vasitəsilə xalqın inamları, etiqad və ayinləri bədii həqiqətlərə çevrilib yaşamış və bir çoxu bu günümüzə qədər gəlib bizə çatmışdır. Azərbaycan türklərinin uzun əsrlərin keşməkeşlərinə sinə gərib özünü bu günə yetirən el mərasimləri respublikamızın müxtəlif bölgələrində özünəməxsus xüsusiyyətlərə malik bir şəkildə yaşamaqdadır. Azərbaycanlıların ailə məişətində qərar tutan qarşılıqlı yardım formaları istənilən mövsüm və məişət mərasimlərində özünü büruzə verir.

Kulturoloji fikirdə mərasim anlayışı əsasən sosial-bədii hadisə, sosial-mənəvi fenomen kimi qavranılmaqdadır. İctimai həyatın ən müxtəlif sahələrinə xas olan ənənə – sosial və mədəni irsin nəsildən-nəslə keçən və müəyyən cəmiyyət, sinif və ya sosial qrup tərəfindən uzun müddət qorunub saxlanılan ünsürləridir. Bayram və mərasimlər milli-mənəvi dəyərlər sisteminin ayrılmaz parçası, ənənənin tərkib hissəsidir. Lakin bayram və mərasim ənənənin ən mütəşəkkil, mükəmməl, daha geniş təsir dairəsinə malik olan formasıdır. Bayram və mərasimlər cəmiyyət üzvlərini ümumi mənafe baxımından birləşdirir, onlarda azadlıq və kollektivçilik hissləri oyadır, həmrəylik duyğusu aşılayır. Bu sosial prosesdə insanlar öz maddi varlıqlarını, birlik və ümumilik hisslərini daha çox aydın dərk edirlər. Bədii-estetik, psixoloji, tərbiyəvi, əyləncəvi və s. mənalarda bayram və mərasimlər asudə vaxtın elə təşkili formasıdır ki, bu proses tamaşadan fərqli olaraq yalnız qavramağa deyil, fəal iştiraka əsaslanır.

İlk mərhələdə ictimai davranış qaydası kimi yaranan adət-ənənələr müəyyən bir nəslin maddi və mənəvi həyatını özündə təcəssüm etdirmişdir. Həmin nəslin maddi və mədəni səviyyəsi, estetik zövqünün dərəcəsi, habelə təbiət və cəmiyyət haqqında təsəvvürləri adət-ənənələrdə öz əksini tapmışdır[6]. Əvvəlki nəslin hiss və düşüncələrini, duyğularını, poetik məharətini, bir sözlə, ruhunu özündə birləşdirən bu adət-ənənələrə magik əhəmiyyət verildiyi üçün onlara riayət etmək həm mənəvi borc, həm də nəsillər arasında əlaqə, ardıcıllıq vasitəsi sayılmışdır. Mərasimlər insanın hissi həyatının forması, xarici təzahürü kimi mühafizə edilir.

I fəslin **“Kütləvi xalq bayram, mərasim və şənlikləri kulturoloji dəyərlərin daşıyıcısı kimi”** başlıqlı ikinci yarımfəslində diqqət belə bir məqama yönəldilir ki, ənənəvi bayram, mərasim və şənliklər insanların

---

[6] Məmmədov Ə.S., Quliyev H.A. Azərbaycan adət və ənənələri, Bakı: Birləşmiş nəşriyyat mətbəəsi, 1966, 78 s.

gündəlik həyatının üzvü hissəsi kimi yaranmış, əsasən yüksək əxlaqi görüşlər təlqin etməklə yanaşı, həm də xalqın yaradıcılığının, istedadının, bir sözlə, bədii zövqünün inkişafına xidmət etmişdir. Azərbaycanlıların bayramlarını, adət-ənənələrini və mərasimlərini dərindən öyrənmək üçün ailə-məişət mərasimlərini, mövsüm mərasimlərini, xalq əyləncə, oyun və tamaşalarını, xalq teatrlarının məzmununu, elementlərini yaxşı mənimsəmək lazımdır. Xalqın ədəbiyyatı, folkloru, musiqisi, incəsənəti, adət-ənənələri, bayram və mərasimləri, oyun və əyləncələri həmin mənəvi mədəniyyətin mühüm tərkib hissələridir. Bu mədəniyyət hər bir xalqın sosial-iqtisadi həyatı və məişəti ilə birlikdə inkişaf etmiş, bir çox əhəmiyyətli cəhətləri özündə yaşatmışdır. Xalqın həyatından, tarixindən, təsərrüfatından, məişətindən kənarda olan mənəvi mədəniyyət təsəvvür etmək olduqca çətindir.

Bayram mərasimləri çox müxtəlif, məzmun etibarilə rəngarəng olub, azərbaycanlıların ictimai-iqtisadi həyatı və məişət xüsusiyyətləri ilə sıx bağlıdır. Onlar içərisində unudulmaq üzrə olanı da var, getdikcə daha geniş miqyasda keçiriləni də. Hər bir yeni yaranan din özündən əvvəlki etiqadları, adət-ənənələri sıradan çıxarmağa çalışdığı üçün bayramların da bir çoxu unudulmuş, yaddaşlardan silinmişdir.

Xalqın ədəbiyyatı, incəsənəti, musiqisi, bayram və mərasimləri, folkloru, adət-ənənələri tarix boyu həmişə bir-biri ilə əlaqədə inkişaf etmişdir. İnsanlar yalnız öz iradələrindən və istəklərindən asılı olaraq kütləvi bayram və mərasimlərin real iştirakçısına çevrilirdilər. Onlar kənar təsirlərə məruz qalmadan, adət və mərasimin təqdim etdiyi estetik idealı könüllü şəkildə qəbul edir və onun bütün şərtlərinə əməl etməyə çalışırdılar. Xalq bilavasitə yaradıcısı, təşkilatçısı və iştirakçısı olduğu bayramlara məhz könüllülük əsasında qoşulmuş və insanlar bu şənlikləri ümumxalq mənafeyinə xidmət edən bir hadisə kimi dəyərləndirmişlər.

Mənəvi dəyərlərimizin formalaşmasında islamaqədərki dini inanclar çox böyük rol oynamışdır. Belə ki, xalqın adət və ənənələrini, davranışını, düşüncə tərzini, dünyabaxışını müəyyən edən və özündə əks etdirən həmin inanclar onun mənəviyyatının özülüdür. İslamaqədərki dini-fəlsəfi və ictimai fikir tariximiz xalqımızın dünyaya baxışını özündə əks etdirir. Lakin ərəb xilafəti müsəlman dini pərdəsi altında xalqımızın əsrlərdən bəri mədəni nailiyyətlərini aradan götürməyə çalışmışdır. Bu səbəbdən də bir sıra milli adət-ənənələr sıradan çıxmış, əksər milli bayramlar, xüsusilə ərəblərin zərdüştiliklə əlaqələndirdikləri bayramlar açıq-açığına qadağan edilmişdi. Bununla belə Novruz kimi xalq arasında geniş yayılmış bayramları aradan çıxara bilməmişlər.

Həm milli, həm də dini mərasimlər mənəvi dəyərlər sisteminin çox mühüm elementi kimi bu gün də ictimai hafizədə öz funksiyasını qoruyur[7]. Bayram və mərasimlər dünyagörüşümüzün, həyat tərzimizin, məişətimizin ayrılmaz hissəsi olub, xalqın tarixini, adət-ənənələrini, onun sosial-iqtisadi və mənəvi təkamülünü, təbiətə və cəmiyyətə münasibətini, ictimai şüurun yetkinlik səviyyəsini əks etdirən sosial-bədii hadisə, sosial-mənəvi fenomendir. Hər biri sosial hadisəyə çevrilmiş kütləvi mərasim, şənlik və bayramların tədqiqi xalqımızın tarixi, dünyagörüşü, həyat tərzi və s. ilə bağlı bir sıra problemlərə aydınlıq gətirir. Mövzunun araşdırılması təsdiqləyir ki, bu bayramların təbiətlə, həyatla bağlılığı, onun dünyəvi mahiyyət kəsb etməsi, həm bu bayramların özünün məzmunca daha az təhriflərə məruz qalaraq nəsildən-nəslə ötürülməsini, həm də sosial hadisə kimi xalqın bədii-estetik təfəkkürünün inkişafını, mədəni irsinin mühafizəsini şərtləndirmişdir.

I fəslin **"El mərasimlərində təzahür edən xalq ruhunun sosial-iqtisadi və mənəvi-tərbiyəvi aspektləri"** başlıqlı üçüncü yarımfəslində göstərilir ki, cəmiyyəti mənəvi zənginliklərə qovuşduran, birləşdirən, nəsillərin tarixi təcrübəsini mühafizə edən, yaşadan, öyrədən və gələcək nəsillərə ötürən, insanlara mənəvi təsir göstərən, estetik zövq verən, eyni zamanda onların mənalı və məzmunlu istirahəti üçün şərait yaradan adət, ənənə və mərasimlər mürəkkəb və çoxfunksiyalı sosial hadisələrdir. Bu mədəni dəyərlər öz mahiyyəti etibarilə mərasimin ayrı-ayrı növləri olub, bayram şəraitindən yaranan, insanların sosial-mədəni fəaliyyətinin tipləridir. Mərasimlər adətən fərdi, dini və millidir. Fərdi mərasimlər məhdud çərçivədə keçirildiyi halda, dini mərasimlər toplumların daha böyük bir qismini əhatə edir. Cəmiyyətin demək olar ki, bütün fərdlərinə aid olan milli mərasimlər isə bilavasitə xalqın həyatından, həyat fəlsəfəsindən, təbiətə münasibətindən qaynaqlandığı üçün tarixən geniş və təntənəli surətdə keçirilmişdir. Tarixi şəraitdən, ictimai-siyasi vəziyyətdən, cəmiyyətin siyasi şüurundan, mədəni səviyyəsindən və eləcə də digər amillərdən asılı olaraq tarixin müxtəlif vaxtlarında dini və milli mərasimlərə münasibət fərqli olmuş, çox vaxt biri təntənəli qeyd edildiyi halda, digərinə məhdudiyyətlər, qadağalar qoyulmuşdur. Bu prosesdə tamamilə sıradan çıxmış və ya mövcud təzyiqlər nəticəsində müəyyən aşınmalara məruz qalmış mərasimlərlə yanaşı, mahiyyətini, ilkin funksiyasını eynilə davam etdirən mərasimlər də olmuşdur.

Xalqın mənəvi dəyərlərinin hər biri arasında qarşılıqlı əlaqə, funksional rabitə olmaqla, onlar həm də bir-birini doğuran, təsirləndirən və

---

[7] Abdullayeva N.Ə. Milli-mənəvi dəyərlərimizin formalaşmasında İslamın yeri və rolu. Fəl. üzrə fəl. dok. ... dis. avtoref. Azərbaycan Respublikası Təhsil Nazirliyi. BDU, 2010, 26 s.

tamamlayan kulturoloji vahidlərdir. Adət şəxsləndirilmiş, fərdiləşdirilmiş bayram mərasimidir. Adət doğuran bayram şəraiti şəxsi xarakterli hadisədən irəli gəlir, ilk növbədə konkret şəxsə, onunvasitəsilə bütün cəmiyyətə aid olur. Hətta bir sıra bayramlar buraya daxildir. Əgər bu əməklə bağlıdırsa, onda deməli həmin adət öz əmək fəaliyyətinə başlayan konkret bir şəxs üçün hadisədir. Bu zaman, kütləvi adət fəaliyyəti şəxsiyyətlərin məcmusu kimi meydana çıxır. Bu, şəxsi əhəmiyyətli hadisə ictimai xarakter daşıdığı halda adətlər yalnız fərdlərin şəxsi həyatı üçün deyil, başqaları üçün də bayram hadisəsinə çevrilir. Başqa sözlə, şəxsi hadisədən ictimai bayrama, xalq yaradıcılığınadək yüksəlir.

Mərasimlər isə dəyişməyən, birdəfəlik müəyyən edilmiş, ənənəyə bağlı sabit fəaliyyət növüdür. Mərasimlər normativ funksiyaları yerinə yetirir, kollektivin birliyini qorumağa kömək edir, diqqətin müvəqqəti və təsadüfi vəziyyətindən daimi və möhkəm xarakterdə saxlamaq vasitəsi rolunu oynayır. Bir çox mədəni hadisələr mərasimləşməyə məruz qala bilər. Ona görə də mərasimə yalnız bayram və ya adət hadisəsi kimi baxmaq olmaz. Adətlərə nisbətən mərasim möhkəmləndirici vasitə kimi çıxış edir.

Hər bir mərasim mədəni fəaliyyətin mürəkkəb, çox funksiyalı formasını yaratmaqla dərin, şəxsi və ictimai məna kəsb edir. Mərasim adamları cəmiyyətin mənəvi zənginlikləri ilə birləşdirir, nəsillərin tarixi təcrübəsini onlara öyrədir, mənəvi və estetik təsir göstərir, eyni zamanda adamların istirahətini təşkil edir. El mərasimlərində qarşılıqlı yardım formaları və ya el köməyi adətləri coğrafi mühitin, ictimai-iqtisadi amillərin təsiri altında yaranıb formalaşmışdır. Lakin insanlar arasında münasibətləri şərtləndirən mənəvi-psixoloji, etik faktorlar da hər zaman həlledici rol oynamışdır. Qarşılıqlı yardım formaları tarixi varislik prinsipinə əsaslanmış, zaman-zaman sosial-iqtisadi quruluşlar çərçivəsində dəyişilən təsərrüfat-mədəni tiplərə uyğun təkmilləşmiş, sosial institut səviyyəsinə yüksəlmişdir. Xalqın ictimai-iqtisadi, mədəni-texniki inkişafını özündə əks etdirən, mənəviyyat meyarı hesab olunan, psixoloji, əxlaqi, etik və humanist mahiyyətinə görə etnosun milli müəyyənlik göstəricisi olan qarşılıqlı yardım institutu təsərrüfat və ailə məişətimizdə, el mərasimlərində özünü göstərmiş, müxtəlif terminlərlə ifadə olunsa da, məzmun və mahiyyət etibarilə eynilik təşkil etmişdir.

İnsanların arzu və istəyini əks etdirən, hansı formada olursa-olsun, onların mənəvi ehtiyacını ödəyən adət-ənənələr və mərasimlər ictimai quruluşun iqtisadi mühitindən asılı olmayaraq yaşamış, əhalinin kasıb təbəqəsinin iştirakına da təminat yaratmışdır. “Bunlara Qurban, Orucluq, Novruz bayramlarını, toy və yas

mərasimlərini nümunə göstərmək olar"[8]. Bu bayram və el mərasimlərində xalq ruhunun sosial-iqtisadi və mənəvi-tərbiyəvi aspektləri özünü bariz şəkildə təzahür etdirir. Mərasimlər insanlar arasında ünsiyyət yaradır, ictimai ədalətsizliyə qarşı etiraz nümayiş etdirir, insanları mənəvi təmizliyə, paklığa çağırır.

Dissertasiyanın **II fəsli "Toy və yas mərasimlərinin mahiyyəti milli-kulturoloji dəyərlər kontekstində"** adlanır. Fəslin **"Toy mərasimlərinin ümumi və səciyyəvi xüsusiyyətlərinə tarixi-müqayisəli yanaşma"** başlıqlı ilk yarımfəslində vurğulanır ki, türk xalqlarının adət-ənənəsində, folklorunda, etnoqrafik həyatında və birgəyaşayış mədəniyyətində özünə möhkəm yer tutmuş toy mərasimlərinin tədqiqi və bu tarixi-mədəni irsin çağdaş kulturoloji dəyərlərlə müqayisəli təhlili müasir Azərbaycan cəmiyyətindəki mədəniyyət quruculuğunun inşası baxımından əhəmiyyətlidir. Tarixən Azərbaycan toy ənənəsi özündə evlənmə mərasiminin bütün mərhələlərini – qızbəyənmə, elçilik, nişan, toy şənlikləri və gənc ailənin toydan sonrakı həyatının bəzi məqamlarını əhatə edir.

Uzun əsrlər boyu xalqımızın məişətində əsas yerlərdən birini tutan, müəyyən dəyişikliklərə məruz qalsa da, öz ilkin mahiyyətini qoruyub saxlayan, türk etnik-mədəni mühitinin ibtidai təxəyyül imkanlarının yaratdığı və elin-obanın böyük şənliklərlə keçirdiyi milli adətlər kompleksindən birincisi toyla bağlı adətlərdir. Toy, eləcə də onunla bağlı adət və mərasimlər xalqımızın məişət mədəniyyətinin mühüm tərkib hissəsi olub, tarixən formalaşaraq bu günümüzdə də əzəli-əbədi əhəmiyyətini qoruyub saxlamaqdadır.

Azərbaycanlıların toy mərasimi aşağıdakı kimi təsnif edilir: qızın bəyənilməsindən nişan aparılması daxil olmaqla birinci mərhələ; qızın nişanlanmasından toya qədərki mərhələ; toyun başlanmasından gəlinin ər evində üzə çıxarılmasına qədərki mərhələ[9]. Deməli, toy çoxsaylı adət-ənənələrlə zəngin olan – qızbəyənmədən başlamış gəlinin ər evində üzə çıxmasınadək davam edən mürəkkəb bir mərasimdir. Toy zamanı həyata keçirilən mərasimlər, adət və ənənələr ictimai-sosial mahiyyət daşımışdır. Xalq arasında "toy" dedikdə müasir evlənmə prosesinin son mərhələsi, qonaqlıqla başa çatan şənlik, çalıb oynamaq mərasimi başa düşülür ki, bu təsadüfi deyildir. Çünki, ulularımızın "toy" anlayışında şənlik məclisi, qonaqlıq, yeyib-içmək, çalıb-oynamaq özünə möhkəm yer etmişdir.

---

[8] Hüseynov İ.H. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti, Bakı: Mars-Print, 2002.

[9] Qeybullayev Q.Ə. Azərbaycanlılarda ailə və nikah (XIX əsr və XX əsrin əvvəlləri). I hissə. Bakı: Elm, 1994, 376 s.

Azərbaycanlıların minilliklər boyu mövcud olan mədəni irsini, qədim dünyagörüşlərinin qalıqlarını, yaşayış tərzini, həyat təcrübəsini məhz toy mərasimlərində ardıcıl izləmək mümkündür. Azərbaycan tarixən etnik rəngarəngliyi ilə seçildiyi kimi toy mərasimlərindəki adət və ayinlərinin rəngarəngliyi baxımından da zəngindir. Uzun müddət yanaşı yaşama və bir-birinin mənəvi mədəniyyətlərindən təsirlənmələr həm Azərbaycan türklərinin, həm də digər Azərbaycan etnoslarının adət-ənənələrində, o cümlədən toy mərasimlərində özünəməxsus çalarlar yaratmışdır. Toy əcdadlarımızın sahib olduğu mənəvi mədəniyyəti, o cümlədən incəsənətin müxtəlif sahələrini, etiqad və inamları, dünyagörüşü, etik-estetik əlamətləri, həmçinin ictimai həyatın bir sıra elementlərini bugünkü günlərə çatdıran əvəzsiz şifahi mənbədir. Toy iki gəncin evlənməsi fonunda bütün icmanı bir yerə toplayan, onların qarşılıqlı münasibətlərini əks etdirən bir mərasimdir.

Azərbaycanın bölgələrində ailə qurarkən yerinə yetirilən bütün adət-ənənələr, cüzi fərqlərlə eyni qaydalar üzrə həyata keçirilmişdir. İlk mərhələyə qızbəyənmə, məsləhətləşmə, elçilik, həri, nişan; ikinci mərhələyə bayramlarda icra olunan adətlər, hər iki tərəfin toya hazırlığı daxil idi. Evlənməyin daha təmtəraqlı son mərhələsində oğlan evində parça, bəydurdu, böyük toy, gəlingətirdi, üzəçıxdı, qız evində isə paltarkəsdi, cehizgördü, xınayaxdı, gəlinapardı və s. mərasimlər icra olunurdu. Qızbəyənmə, məsləhətləşmə və elçilik ağsaqqalların timsalında el-obanın toy sahibinə mənəvi dəstəyi ilə icra olunurdu. Ağsaqqalı dinləmək, məsləhətinə riayət etmək azərbaycanlı ailəsində dəyişməz ənənə xarakteri daşımışdır. İlk mərhələdə qızın seçilməsi məsuliyyət kəsb etdiyindən qohum-əqrəbanın böyükləri işə cəlb edilirdi. Nişanla toy arasında olan mərhələdə bir sıra adətlər, xüsusilə də, qohum-əqrəbanın qurulacaq yeni ailəyə çoxsaylı yardımları müşahidə olunurdu. Bu müddət kasıb ailələr üçün daha uzun çəkir və onların toy hazırlığının tamamlanması əsasən el köməkliyinin nəticəsi ilə həyata keçirdi.

Azərbaycanda tarixən evlənmək üçün iki yolla nikah əlaqələrinə girmək mümkün idi: razılıq əsasında bağlanan nikahlar və qızların qaçırılması yolu ilə bağlanan nikahlar. "Hər iki halda el-obanın birliyi və yenicə qohum olan tərəflərə köməkliyi təzahür edirdi"[10]. Toy mərasimlərindəki yardımlar əsasən üç formada olmuşdur: mənəvi, maddi və fiziki yardım. Toy həm nikaha girmə vasitəsi, həm bir xalq yığıncağı, həm də müəyyən qədər göstəriş meydanıdır. Burada mərasim iştirakçıları tərəfindən xüsusi canfəşanlıq nümayiş etdirilir, insanların əhval-ruhiyyəsi dəyişir və o, əyləncə xarakteri kəsb edir.

[10] Məmmədova İ. G. Azərbaycanda qarşılıqlı yardım formaları (tarixi-etnoqrafik tədqiqat). Bakı: Elm, 2011, 216 s.

Azərbaycan toy mərasimlərinin mahiyyəti eyni olsa da, burada yaşayan digər etnosların toy adətlərinin spesifik və ortaq cəhətləri də vardır ki, bunların icra tərzi və adlarında müəyyən lokal xüsusiyyətlər müşahidə olunur. Azərbaycan türkləri ilə birgə yaşayan avarlar, saxurlar, rutullar, udilər, ingiloylar, tatlar, ləzgilər, Şahdağ qrupuna aid edilən etnoslar, dağ yəhudiləri, talışlar kimi etnosların toy mərasimləri ilə bağlı özünəməxsus adətləri bu mənada maraq doğurur. Azərbaycan etnosları arasında icra olunan ümumazərbaycan adətlərinin bir çox türk xalqlarında da rast gəlinən nümunələri vardır.

Azərbaycan türkləri ilə birgəyaşayış tərzi Azərbaycan etnoslarında ortaq adət-ənənələrin də formalaşmasına öz bəhrəsini vermişdir. Toy mərasimlərinin müqayisəli təhlili bütövlükdə ümumazərbaycan mədəniyyətinin yeni qatlarının üzə çıxarılmasına, mənəvi mədəniyyətimizin etnik spesifikliyini, rəngarəngliyini göstərməyə, bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinin spesifikasını ifadə etməyə imkan verir. Müasir dövrdə də Azərbaycan ümummədəni dəyərləri, o cümlədən ortaq toy adət və ənənələri baxımından türklərlə digər etnosların toy mərasimləri əksər hallarda müştərək səciyyə daşıyır ki, bu da birgəyaşayış mədəniyyətinin səviyyəsinin və qarşılıqlı tarixi-mədəni təsirlənmələrin bəhrəsi kimi qiymətləndirilir.

II fəslin **“Yas mərasimlərinin sakral və dünyəvi mahiyyətinə tarixi-kulturoloji baxış”** başlıqlı ikinci yarımfəslində bu qənaətə gəlinir ki, ailə məişətinin məsuliyyətli və ciddi məsələlərindən biri dəfn və yas ilə bağlı adət-ənənələrdir. Ailə məişətinin digər adət və ənənələrindən fərqli olaraq dəfn adətləri din ilə bağlı olduğuna görə cüzi dəyişikliklərə uğramaqla müasir dövrə qədər mühafizə edilib yaşadılmışdır. Bu gün də azərbaycanlıların ailə məişətində xüsusi yer tutan adət-ənənələrdən biri məhz öz mühafizəkarlığı ilə seçilən dəfn və yas mərasimləridir. İctimai hadisə mahiyyəti kəsb edən yas mərasimləri mənəvi mədəniyyətin ayrılmaz bir hissəsi kimi bəşər cəmiyyəti inkişafının bütün mərhələlərində mühüm rol oynamışdır. Dəfn adətinin qədim zamanlardan bəri müəyyən mərhələlər keçdiyi və bununla bağlı bir sıra inamlar və müxtəlif təsəvvürlər mövcud olduğu bəllidir. Mənbələrdə dəfn mərasiminin müxtəlif xalqlarda fərqli şəkildə icra olunduğu göstərilsə də bu mərasimin bütün dövrlər üçün xarakterik olan bir cəhəti vardır ki, o da ölənə və bütövlükdə ölüm hadisəsinə olan münasibətdir. Dəfn mərasimlərinin tarixi elə insanlığın tarixi qədərdir ki, bu da bu mərasimin qədim tarixindən xəbər verir.

Cəmiyyət inkişaf etdikcə dəfn mərasimlərində müəyyən dəyişikliklər, yeniliklər meydana gəlirdi. Xüsusilə də monoteist dinlərin meydana gəlməsi dəfn adətlərinə bir sıra yeniliklər gətirdi. O cümlədən, Azərbaycanda yayılan İslam dini özündən əvvəl yaranmış dinlərə münasibət zəminində zənginləşərək yeni dövrün xüsusiyyətlərinə uyğun-

laşmışdı. Dində uzun illər boyu insanların psixologiyasına və məişət tərzinə uyğun olan mövcud adət və ənənələr, davranış qaydaları öz əksini tapırdı. Eləcə də, din xalqın bilavasitə yaşam tərzinə və davranış qaydalarına sirayət edərək, müəyyən ayinlərin icrasını gərəkli etmişdir. Adətlərin dinə, dinin isə öz növbəsində məişətə qarşılıqlı təsiri orta əsrlərdə aydın sezilməkdədir. Bu qarşılıqlı təsir isə hamılıqla qəbul olunmuş ənənəyə çevrilərək kütləvi xarakter alırdı.

Orta əsrlərdən başlayaraq müsəlman xalqlarının əksəriyyətində dəfn qaydaları və mərasimləri – mərhumun yuyulması, qüsullanması, kəfənlənməsi, qəbrin quruluşu, ölü namazının qılınması, cənazənin məzara endirilməsi, təlqin və İslam dininin qanunları ilə müəyyən edilmiş digər adətlər oxşardır, demək olar ki, eynidir və onlara əməl olunması vacib sayılır[11]. Müstəhəb, yəni yerinə yetirilməsi mütləq vacib hesab edilən bu dəfn adətləri ilə bərabər, Azərbaycanda keçmişdə bir sıra yerli mənşəli dəfn adət-ənənələrinə də əməl edilirdi. Həmin adət-ənənələr müstəhəb olmasa da, yəni məcburi hesab edilməsə də, el arasında mütləq yerinə yetirilmiş və bu günədək qorunub saxlanmışdır.

Ta qədimdən üzü bəri dəfn və yasla bağlı formalaşan mərasimlərin şəriət normaları qərarlaşmışdır ki, burada icra olunan qarşılıqlı yardım adəti də İslam dininin təsiri ilə daha da güclənmiş və yeni dəyərlər qazanmışdır. Tarixi faktlar təsdiqləyir ki, bütün tarixi dövrlərdə mərhumun dəfn və yas mərasimi qarşılıqlı yardım sayəsində baş tutmuşdur. Ölümlə barışmayan, halsız, taqətsiz vəziyyətə düşən ev sahibi qohum-əqrəbanın, həmyerlilərin, dost-tanışın qayğısı ilə təsəlli tapır, yas məclisini başa çatdırırdı. İslam dininin bərqərar olduğu dövrlərdən etibarən bütün müsəlman xalqlarının dəfn və yas mərasimləri demək olar ki, oxşar olmuş və günümüzə qədər dəyişməz qalmışdır. Müsəlmanların ölümlə bağlı düşüncələri Qurani-Kərimdə, həmçinin hədislərdə öz əksini tapmışdır. Bəzi müsəlmanlar yaşa dolduqca özlərinin dəfn və yas mərasimləri üçün hazırlıq işlərini görürlər. Dəfn mərasimində bütün camaat, hətta küsülü qohumlar, qonşular, bəzən isə qan düşmənləri də mərhum hələ can üstündə olarkən onunla vidalaşmağa, halallaşmağa gəlirlər.

Azərbaycan bölgələrinin yas mərasimlərində bəzi özünəməxsus adətlərin qalmasına baxmayaraq, ortaq adətlər daha çox üstünlük təşkil edir. Türk coğrafiyası üzrə aparılmış paralellər Azərbaycanın tarixi-etnoqrafik bölgələrində təsbit edilən bir çox nümunələrin Orta Asiya, Anadolu, Altay, Balkan türklərinin mərasimlərində də mövcud olduğunu göstərir. "Müasir dövrdə dəfn mərasimi əvvəllər də olduğu kimi, din xadimi olan

---

[11] Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı: "Şərq-Qərb", 2007, 544 s.

mollanın iştirakı ilə keçirilir və bu zaman bir sıra adətlərin icrası mütləq sayılır"[12]. Eyni zamanda Azərbaycanın fərqli bölgələrində icra olunan dəfn yas mərasimlərində İslam ənənələri ilə yanaşı qədim inanclar sisteminin qalıqları da özünəməxsus şəkildə qorunub saxlanmaqdadır.

II fəslin **"Modern və multikultural cəmiyyətdə toy və yas mərasimləri praktikasına yeni baxış: prosesin milli və dini dəyərlər kontekstində elmi-tənqidi izahı"** adlı üçüncü yarımfəslində qənaətlər bundan ibarətdir ki, multikultural cəmiyyətin şərtlərini özündə ehtiva edən azərbaycançılıq yüksək əxlaqi normalarla yanaşı yeni dünyəvi dəyərləri də özündə birləşdirir. Azərbaycanlıların ənənəvi toy və yas mərasimləri tarixən müəyyən dəyişikliklərə uğrasa da, bütün dövrlərdə öz mahiyyətini və gözəlliyini saxlamışdır.

Toy və yas mərasimlərinin tənzimlənməsi məsələsi son illərdə cəmiyyətin, eləcə də dövlət strukturlarının gündəmində olmuşdur. Böyük əksəriyyət mənəviyyatın və ictimai təfəkkürün bir göstəricisi olan bu mərasimlərin tənzimlənməsinin tərəfdarı kimi çıxış edir.

Mütəxəssislər belə bir praktik təkliflə çıxış edirlər ki, toy mərasiminin menyusu hər kəsin öz şəxsi imkan və zövqünə görə hazırlansa yaxşıdır[13]. Toyda çoxlu yemək vermək adəti aradan qalxsa, toy sahibi israfçı məsrəflərdən xilas olar. Menyunun uyğun standartlar çərçivəsində iştirakçıların istəyi üzrə tərtibi daha praktik olar. Menyu uyğun olaraq xidmətçi vasitəsilə sifariş edilsə israfçı və narahatedici bir çox problemlər də həll olunmuş olar. Toy sahibi musiqi məsələsini də dəyərlərə və peşəkarlıq səviyyəsinə görə həll edə bilmək üçün bilicilərin məsləhətini dinləsə, mərasim daha çox xoş və yaddaqalan keçirilər. Toy sahibi ümumi axına düşməsə, şöhrətpərəstliyə tutulmasa, daha çox alternativlər üzərində baş sındırsa, əslində elə həm də mövcud dəyərlərdən sapmalara qarşı mübarizə aparmış olar. Əksəriyyət şadlıq evlərinin cəmiyyəti istismar etməsinə qarşı baş sındırsa həm də doğmalarına keçirdiyi toy mərasiminə həqiqi sosial-mədəni status qazandırmış olar.

Yas mərasiminin təşkili ilə bağlı da yaxın tariximizdən nümunə götürəcəyimiz bir çox məqamlar vardır. Bu nümunələrdə yas mərasiminin mərhumun xatirəsi üçün cəmiyyətə faydalı işlər görülməsinin şahidi oluruq. Hazırda isə yas mərasimlərin naqis tərəfləri düşünən insanları narahat edir. Hətta Dini İşlər üzrə Dövlət Komitəsinin yas mərasimlərinin keçirilməsinin tənzimlənməsi ilə bağlı qərarı belə əhali tərəfindən birmənalı qarşılanmır. Halbuki, yas mərasimləri artıq öz ictimai məzmununu, həqiqi sosial

---

[12] Bünyadova Ş.T. Orta əsr Azərbaycan ailəsi. Bakı: Elm, 2012, 384 s.

[13] Mehdi Tofiq. Rasional cəmiyyətə doğru (Rasionallaşma strategiyaları. Gələcək araşdırmaları elmi mövqeyindən futuroloqun baxışı). Bakı: "Səda" nəşriyyatı, 2009, 248 s.

mahiyyətini itirmək üzrədir. Bir qisim insanların birbaşa və ya dolayısı ilə etiraz etməsinə baxmayaraq, əksəriyyət hələ də ictimai qınaqdan ehtiyatlanaraq yas mərasimlərinin sadə şəkildə keçirilməsi təklifinə biganə yanaşır. Bu sahədə Türkiyənin təcrübəsi bir çox mütəxəssislər tərəfindən təqdir edilir. Çünki Azərbaycandan fərqli olaraq Türkiyədə yas mərasimləri daha çox məscidlərdə cənazə namazının qılınması və qəbiristanlıqda dəfn mərasiminin keçirilməsi ilə məhdudlaşır. Bu ölkədə vəfat edən şəxsin ailəsinin yas içində olmasını nəzərə alaraq, onlara qonşuları və yaxın qohumları bir neçə gün yemək bişirib gətirirlər.

Təcrübə göstərir ki, bəzən cəmiyyətin əziyyət çəkdiyi yanlışlıqlardan can qurtarması çətin olur ki, bu da çox ciddi sosial-iqtisadi və maddi-mənəvi fəsadlara yol açır. Mütəxəssislərin əksəriyyəti mövcud vəziyyətdən narahatlıqlarını bildirirlər. Etiraz edənlər ən çox el mərasimlərindəki israfçılıqdan şikayətlənirlər. Xüsusilə də toy mərasimlərində insanlar istirahət etmək əvəzinə, səs-küy və israfçılıqla qarşılaşırlar.

Toy və yas mərasimlərimizin hazırkı vəziyyəti əksər insanları narahat etsə də, xoşagəlməz, adət-ənənələrimizə yabançı olan, mərasimlərimizi gözdən salan halların aradan qaldırılması üçün ictimai qınaq və təşəbbüslər nəticəsiz qalır. Çoxları hələ də bu acı reallığa qarşı şəxsi nümunəsi ilə etiraz etmə düşüncəsində deyildir. Halbuki əhalinin böyük əksəriyyəti hazırda toy dəvətnamələrinin səksəkəsi altında yaşayır. Bəzən dalbadal toy dəvətnaməsi alan insanlar bu mərasimə şadyanalıqla deyil, candərdi gedirlər. Çünki toyda iştirak etmək üçün ailə büdcəsinə sərf etməli olduqları pulu xərcləyirlər, çox vaxt da borc-xərc edirlər. Üstəlik, toy mərasimləri insanların əhəmiyyətli dərəcədə vaxtını alır.

İctimai qınağın lazımınca olmaması, problemin lazımınca ictimailəşməməsi bizi alternativlər haqqında düşünməyə vadar edir. Bəzən qanun olmasa belə, ictimai fikir və qınaqla müəyyən nəticələr əldə etmək mümkündür. Mütəxəssislərin qənaəti də bu fikri deməyə əsas verir ki, toy və yas mərasimlərini nizamlamaq üçün qanunlar qəbul etmək lazımdır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yas mərasimlərinin sadə qaydada keçirilməsi üçün bir sıra ciddi addımlar atsa da, əhalinin tövsiyələrə lazımi reaksiya verməməsi narahatlıq doğurur. Ənənəvi toy və yas mərasimlərinin əsrlərdən bəri dəyər statusu qazanmış xüsusiyyətlərini qoruyub saxlayaraq gələcək nəsillərə ötürməyimiz üçün qanunlara hörmət hissi ilə yanaşı ictimai rəy və qınağı, bəşəri dəyərlərə adekvat olan milli etik-əxlaqi xüsusiyyətləri mühafizə etmək məcburiyyətindəyik.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir, əldə edilmiş qənaətlərə istinadən təklif və tövsiyələr verilir. Bildirilir ki, azərbaycanlıların el mərasimləri tarixən müəyyən dəyişikliklərə və əla-

vələrə məruz qalsa da, özünəməxsusluğunu və ilkin mahiyyətini mühafizə edə bilmişdir. Mərasim mövzusu ilə bağlı gəlinən qənaətlər bunu deməyə əsas verir ki, sağlam bir cəmiyyət – tarixi düşüncəyə sahib, keçmişi ilə qürur duyan və gələcəyinə inam və ümidlə baxan bir cəmiyyətdir. El mərasimlərinin mahiyyəti və anlayışların terminoloji təhlili aşağıdakı nəticələrə gəlməyə əsas verir:

– El mərasimlərinin təşəkkül tapmasında müxtəlif amillərin qarşılıqlı təsirinin izləri müşahidə edilir və bu fenomen özündə tarixi, coğrafi, etnoqrafik, mənəvi və s. sahələri ehtiva etdiyi üçün onun elmi fikirdə sosial-ictimai hadisə kimi tədqiqi qəbul edilmişdir.

– Mərasimlər mədəni fəaliyyətin mürəkkəb, çoxfunksiyalı formasını yaratmaqla şəxsi və ictimai məna kəsb edir, insanları cəmiyyətin mənəvi zənginlikləri ilə birləşdirir, nəsillərin tarixi təcrübəsini onlara öyrədir, mənəvi və estetik təsir göstərir.

– İslamı qəbul edən azərbaycanlılar dini dəyərlərin mütərəqqi cəhətlərini, mərasimlərin müqəddəsliyini qorumuşdur və bu mərasimlər milli məişətimizdə dərin kök salmışdır. Azərbaycanlılar inam və inanclara, dini bayram və mərasimlərə ehtiramla yanaşır. Çünki el mərasimləri dini və milli inamları, cəmiyyəti maraqlandıran, onu əhatə edən ortaq xatirə və duyğuları məcmu halda özündə ehtiva edərək nəsildən-nəslə ötürür.

– Azərbaycanda yaşayan etnosların adət-ənənələrində uzunmüddətli birgəyaşayış nəticəsində, ümumən azərbaycanlılara xas olan etnik ənənələr üstünlük təşkil etsə də, bu etnoslar özlərinin el mərasimlərindəki spesifik xüsusiyyətlərini müəyyən dərəcədə günümüzədək yaşatmışlar. Lakin Azərbaycan türkləri ilə iç-içə yaşaması nəticəsində bu etnosların el mərasimlərində fərqli cəhətlərdən daha çox oxşar cəhətlər üstünlük təşkil edir. Bütövlükdə, bu etnoslar Azərbaycan etnomədəni mühitində formalaşmışlar. Bu etnosların hər birinin ümumazərbaycan mərasim mədəniyyətində tarixən öz payı olmuş və ortaq Azərbaycan mədəniyyətinin formalaşmasında özünəməxsus şəkildə iştirak etmişdir.

– Azərbaycanlıların ailə həyatında, nikahın bağlanmasında əxlaqi keyfiyyət və dəyərlər əsas götürülmüşdür. Toy mərasimi ənənədən doğan davranış tərzi kimi təşkilati fəaliyyət mahiyyəti kəsb edir. Toyun hər mərhələsi öz mərasimi ilə müşayiət olunur və gəlinlə bəyin statusunun dəyişməsi məqsədini daşıyır. Müasir toy mərasimi əsas ənənəvi xüsusiyyətlərini dəyişmədən modifikasiyaya uğrayaraq yeni ünsürlərlə zənginləşmişdir. Yeni sosial-mədəni və iqtisadi-siyasi amillərin təsirilə daxil olan yeniliklər toy şənliyini transformasiyaya uğratdığına görə bu sahədə müvafiq qurumların maarifləndirici tədbirlərinə və ictimai rəyin öyrənilməsinə ehtiyac vardır.

– Çoxçalarlı adət-ənənələr içərisində vazkeçilməz yeri olan toy mərasimləri el-obanın mənəvi simasının güzgüsüdür. El-obanın kef-damağını, sevincini, şənliyini, musiqisini, poeziyasını, rəqsini, mədəniyyətini əks et-

dirən səciyyəvi xüsusiyyətlər toy adətlərində cəm olunmuş, öz əksini bu kütləvi xalq mərasimində tapmışdır. Bu baxımdan rəngarəngliyi və səciyyəvi cəhətləri ilə seçilən ənənəvi Azərbaycan toylarının müasir dövrdə də orijinallığını saxlaya bilmək üçün ictimai müzakirələrin və mütəxəssis rəylərinin əhəmiyyətini diqqətə almaq faydalı olar.

– Hər dövrdə olduğu kimi, bu gün də toy-düyünlərdə canlı olaraq səsləndirilən əlvan musiqi nömrələri məclis əhlinin ruhunu oxşamağa, onları daha çox sevindirməyə, əhval-ruhiyyə baxımından şənləndirməyə xidmət edir. Toy sahibi övladının bu əziz günündə ən məşhur musiqiçiləri öz məclisində görmək arzusunda olur. Bu mənada müasir toy mərasimlərində janrından asılı olmayaraq peşəkar və zövqlü musiqiyə yer verilməsi, səsin nizamlanması məsələləri ictimai fikri narahat edən məsələlərdəndir.

– Toy və yas mərasimlərinin insani dəyər meyarları ilə tənzimlənməsi üçün müvafiq elmi, ictimai və rəsmi qurumlar birgə fəaliyyət göstərərək hüquqi səlahiyyətləri çərçivəsində mərasim mədəniyyətimizin mühafizəsini və tənzimlənməsini təmin etməlidir. Bunun üçün ümumi ənənəvi mədəniyyətin daşıyıcıları olan ölkələrin, məsələn, Türkiyənin toy və yas mərasimlərinin təşkili və keçirilməsi təcrübəsinin öyrənilməsi və uyğun görülərsə tətbiqi istisna deyil.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. El mərasimlərinin mahiyyəti və tədqiqinə dair.// Mədəniyyət: problemlər və perspektivlər. Doktorant və gənc tədqiqatçıların VI Beynəlxalq elmi konfransının (27-28 aprel 2012, Bakı, ADMİU) materialları. Bakı, “Sabah” nəşriyyatı, 2012, s.22-23.
2. Mərasim anlayışına kulturoloji baxış.// “Mədəniyyət Dünyası” (elmi-nəzəri məcmuə), XXVI buraxılış, ADMİU, Bakı, 2012, s.17-22.
3. Bayram və mərasimlərin formalaşmasına təsir edən amillər.// Mədəniyyət: problemlər və perspektivlər. Doktorant və gənc tədqiqatçıların VII Beynəlxalq elmi konfransının (30 aprel – 01 may 2013, Bakı, ADMİU) materialları. Bakı, “Sabah” nəşriyyatı, 2013, s.23-24.
4. National holidays of Azerbaijan.// European Applied Sciences (ORT Publishing) Germany, 2014, № 6, s.14-16.
5. Историко-культурологические аспекты и сущность символов и атрибутов праздника Новруз в Азербайджане.// Приоритетные направления развития науки и образования: сборник статей II Междунар. науч.-практ. конф. 29 июля, 2014 г. Чебоксары: ЦНС «Интерактив плюс», 2014, с.144-150.

6. Историко-культурологический взгляд на сущность символов и атрибутов, относящихся к церемониям Новруз.// Вопросы культурологии Москва, 2014, №10, с.48-53.
7. Ənənəvi toy mərasimləri və ona hazırlığın mərhələləri ("Kitabi-Dədə Qorqud" eposu əsasında).// Mədəniyyət.AZ, № 5 (303), 2016, s.86-89.
8. Azerbaijan traditional wedding ceremonies and preparedness stages of the cultural analysis ("The book of Dede Korkut" epos based).// East European Scientific Journal Wschodnioeuropejskie Czasopismo Naukowe. Polska, 7 (11), 2016, Vol 3. s.32-36.
9. Dede Korkut Destanında Türk Kadınının Karakteri.// Türk Dünyasında Kadın Algısı. Manisa Celal Bayar Ünıversitesi Yayınları: Yayın No: 0017, Manisa/Türkıye, 2016: Cilt 1, s.23-29.
10. "Kitabi-Dədə Qorqud" dastanında toy mərasimlərinə hazırlıq mərhələlərində qızbəyənmə və elçilik prosesinin təsviri.// "Ali təhsildə keyfiyyətin təminatı" mövzusunda Respublika elmi konfransının (23-24 dekabr, 2016, LDU) materialları. Lənkəran, 2016, LDU. s.172-173.
11. Azərbaycanda dəfn və yas mərasimlərinin tarixi-kulturoloji aspektləri. // "Mədəniyyət Dünyası" (elmi-nəzəri məcmuə), ADMİU, Bakı, 2017, s.38-42.
12. Azərbaycanda dəfn və yas mərasimlərində qarşılıqlı yardım.// Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Təbiət və humanitar elm sahələrinin inkişaf problemləri" Respublika elmi konfransının (5-6 may, 2017) materialları. Lənkəran, 2017, LDU, s.137-142.
13. Azərbaycan xalq bayramları.// Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri. Bakı, ADMİU, 2017, s.50-57.
14. Symbols and attributes of the holiday of novruz in Azerbaijan.// Miedzynarodowe czasopismo naukowe N-3 (14), Polska, 2018, s.26-28.
15. Некоторые аспекты символов и атрибутов праздника Новруз в Азербайджане.// 84 International scientific conference of young scientist and students. "Youth scientific achievements to the 21 st century nutrition problem solution" April 23-24, part 3, Kyiv, 2018, s.547-548.

**Leyla Mikayil Zeynalova**

# PLACE OF AZERBAIJANI NATIONAL CEREMONIES IN THE NATIONAL AND CULTURAL VALUE SYSTEM

## SUMMARY

The thesis consists of an introduction, two chapters, six subsections, a conclusion and a list of used literature. The significance of the topic is grounded, the scientific novelty, goals and objectives, methodological basis, theoretical and practical importance of the research are described in the introduction.

The chapter I of the thesis titled "Historical and cultural evolution dynamics of national ceremonies", consists of three subsections. The chronology of the history of the ceremonial culture formation is explored in the first subsection titled "Historical and etymological approaches to the origin of the concept of the ceremony in the Azerbaijani culturological thought". The essence and etymology of culturological terms such as custom, tradition, ceremony and holiday are enlightened in the II subsection is titled as "National holidays, ceremonies and festivals as the carrier of cultural values". Historical development path of values that have been preserved in the spirit of national ceremonies and survived until today is researched herein. The social, economic and educational aspects of national ceremonies that take significant place in the enrichment of the spiritual world of Azerbaijanis are analyzed in the III subsection titled "The socio-economic and spiritual-educational aspects of the national spirit emerging in national ceremonies".

The II chapter of the thesis consisting of three subsections is titled as "The essence of wedding and mourning ceremonies in the context of national and cultural values". The characteristic features of wedding and mourning ceremonies, which are an integral part of the spiritual culture of the Azerbaijani people, are explored both within historical and modern criteria. The path of development of the Azerbaijani wedding until today is researched in the first subsection titled "Historical and comparative approach to the general and characteristic features of wedding ceremonies". Common characteristics and some distinctive features of traditional mourning ceremonies of Azerbaijanis are enlightened in the II subsection titled "Historical and cultural approach to the sacral and secular nature of mourning ceremonies". The topic is analyzed in the context of a democratic civil society, the practice of holding mourning and wedding ceremonies is evaluated from scientifical and critical point of view in the last subsection titled "A new approach to the practice of wedding and mourning ceremonies in a modern and multicultural society: a scientific and critical explanation of the process in the context of national and religious values".

In the conclusion of the thesis, the main provisions of the research are summarized and conducted researches are concluded. Suggestions and recommendations are made based on the outcomes of the research.

**Лейла Микаил кызы Зейналова**

# МЕСТО АЗЕРБАЙДЖАНСКИХ НАРОДНЫХ ОБРЯДОВ В СИСТЕМЕ НАЦИОНАЛЬНО-КУЛЬТУРОЛОГИЧЕСКИХ ЦЕННОСТЕЙ

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, двух глав, шести подразделов, выводов и списка использованной литературы. Во введении обосновывается актуальность темы, показаны научная новизна, цели и задачи, методологическая основа, теоретическая и практическая значимость исследования.

Глава I диссертации под названием «Динамика историко-культурологического развития национальных обрядов» состоит из трех подразделов. В первом подразделе под названием «Историко-этимологические подходы к возникновению концепции обряда в азербайджанском культурологическом мышлении» исследуется хронология истории формирования культуры обрядов. Была внесена ясность в сущность и этимологию таких культурологических терминов как обычай, традиция, обряд и праздник. Подраздел II называется «Массовые народные праздники, обряды и торжества как носитель культурологических ценностей». Здесь исследуется исторический путь развития ценностей, сохранившихся и дошедших до наших дней в духе народных обрядов. А в третьем подразделе под названием «Социально-экономические и духовно-воспитательные аспекты народного духа, проявляющиеся в народных обрядах» анализируются социальные, экономические и воспитательные аспекты народных обрядов, занимающих важное место в обогащении духовного мира азербайджанцев.

Вторая глава диссертации, состоящая из трех подразделов, называется «Сущность свадебных и траурных обрядов в контексте национальных и культурных ценностей». В данной главе характерные особенности свадебных и траурных обрядов, которые являются неотъемлемой частью духовной культуры азербайджанского народа, изучаются как в рамках исторических, так и современных критериев. Путь развития азербайджанской свадьбы до сегодняшнего дня исследуется в первом подразделе под названием «Исторический и сравнительный подход к общим и характерным особенностям свадебных церемоний». Общие характеристики и некоторые отличи-

тельные черты традиционных траурных церемоний азербайджанцев раскрываются во II подразделе под названием «Историко-культурный подход к сакральной и светской сущности траурных церемоний». В последнем подразделе под названием «Новый взгляд на практику свадебных и траурных церемоний в современном и мультикультурном обществе: научное и критическое объяснение процесса в контексте национальных и религиозных ценностей» тема анализируется в контексте демократического гражданского общества, дается оценка практики проведения траурных и свадебных церемоний с научной и критической точки зрения.

В выводах диссертации обобщены основные положения исследования и подытожены проведенные изыскания. Ссылаясь на результаты исследования, выдвигаются предложения и рекомендации.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
H.Cavid 115

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВА**

---

*На правах рукописи*

**ЛЕЙЛА МИКАИЛ кызы ЗЕЙНАЛОВА**

# МЕСТО АЗЕРБАЙДЖАНСКИХ НАРОДНЫХ ОБРЯДОВ В СИСТЕМЕ НАЦИОНАЛЬНО-КУЛЬТУРОЛОГИЧЕСКИХ ЦЕННОСТЕЙ

**6219.01 – Культурология и её общие вопросы**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по искусствоведению**

**БАКУ – 2018**